UOT 003.29

# ƏCNƏBİ ALİMLƏRİN ƏSƏRLƏRİNDƏ AZƏRBAYCAN NUMİZMATİKASI (ƏN YENİ ƏSƏRLƏR SIRASINDA)

**M.İ.VƏLİYEVA**
*AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu*
*aylin70@mail.ru*

*Azərbaycan tarixinin sosial-iqtisadi və siyasi münasibətlərinin öyrənilməsi əksər hallarda maddi mədəniyyət nümunələrinə əsaslanır. Bu cür maddi-mədəniyyət qalıqları sırasında numizmatik materialların danılmaz və əvəzedilməz rolu vardır. Belə ki, əgər orta əsrlərdən etibarən tarixin qaranlıq səhifələrini araşdırmaq üçün kifayət qədər əlyazmalar mövcuddursa, erkən dövlətçilik tariximizin dəqiqləşdirilməsində məhz arxeoloji qazıntılar zamanı və yaxud təsadüfi tapıntılar nəticəsində aşkar edilən sikkə nümunələri bütöv bir tarixi hadisələri araşdırmaq üçün mütəxəssislər tərəfindən əsas mənbə kimi götürülür. Sikkələrin avers və reversindəki paleoqrafik nümunələr – simvollar, ayrı-ayrı sözlər, monoqramlar, əsasən dövlətlərin kimlər tərəfindən idarə edildiyini, ikonoqrafik nümunələr – portret və şəkillər onların bütün kiçik detalları ilə birlikdə dövrün geyim nümunələrinin, dini dünya görüşlərinin, bəzək elementlərinin və s. çox vacib olan faktların araşdırılmasında mühüm mənbə olaraq qalır. Ən kiçik elementin belə, yəni «oxşatma zərbin» mövcudluğu hansısa bir dövlətin tərkibində nominal asılılığı və bu səbəbdən də, zaman-zaman pul bazarında çatışmazlığın öyrənilməsi üçün ən vacib bir faktordur.*

**Açar sözlər:** Sasanilər. Şəddadilər; etnik sual

Sikkəşünaslıq materialları ən qədim dövrlərdən etibarən dövlətlərin yaranma və inkişaf pillələrinin öyrənilməsi üçün vacib bir mənbə kimi istifadə olunur. Dünya elmi ictimaiyyəti bu vacib faktoru hələ XVIII əsrin ortalarından etibarən qəbul etmiş və istifadə etməyə başlamışlar.

Azərbaycan tarixinin çox mühüm və qədim dövrlərinin ciddi araşdırılması baxımından dünya alimləri tərəfindən numizmatik materialların vacibliyi uzun zamandır ki, qəbul edilməmişdir. Buna baxmayaraq, XXI əsrin əvvəlində, keçən 200 il ərzində əcnəbi alimlərin əsərlərində dövlətimizin tarixinin dəqiqləşdirilməsi üçün sikkə materiallarının və hansı kontekstdən elmə daxil edilməsi öyrənilməmişdir.

XXI əsrin ilk onilliyində dünyada baş verən qlobal dəyişikliklər sırasında bir çox elm sahələrinə də yenidən "baxış" keçirilir. Belə dəyişikliklərə, yeni

ideyalara məruz qalan elmlər sırasında numizmatika və numizmatik materialları da göstərmək olar.

Keçən iki yüz ildə Azərbaycan numizmatika elminin həm vətənimizin tarixinə, həm də dünya tarixinə bəxş etdiyi bir çox yeniliklər vardı. Bu kimi yeniliklər sırasında Orta əsrlərdə Şərq ölkələrində yaranmış feodal dövlətlərinin tarixi və onlarla bağlı bir çox məsələlər məhz sikkələrin araşdırılması zamanı aydınlaşdırılmışdı. Belə məsələlər sırasında Azərbaycanda xilafətin dağılması zamanı meydana gələn kiçik, bəzi hallarda yarımmüstəqil və qısamüddətli fəaliyyət göstərən feodal dövlətlərinin hakim sülalələrinin, şəcərələrinin dəqiqləşdirilməsini göstərmək olar.

Bu cür dövlətlərdən olan Şəddadilərin ölkəmizin tarixində böyük rolu olmuşdu. Şəddadilərin, əsasən Azərbaycan torpaqlarında yaranması məsələsi dünya alimləri tərəfindən qəbul olunmuş aksiomadır. Buna baxmayaraq yeni erməni numizmat-tarixçilərindən olan A.Akopyan adlı birisi 2010-cu ildə Gürcüstanda keçirilən "Qafqazın arxeologiyası, etnologiyası, folkloristikası" adlı beynəlxalq konfrans materiallarında bu dövlətin hakim şəcərəsini heç bir sikkə materialı olmadan "erməniləşdirməyə" çalışmışdır. Müəllif ilk dəfə tarixə adı məlum olmayan Aşot ben Şavur (460-461 hicri ili - 1067-1069-cu illər) haqqında məlumat verərək onun erməni mənşəyini əsaslandırmağa çalışır və belə bir gülünc nəticəyə gəlir ki, onlar (Baqratilər - ana xətti ilə) "qədim erməni şəhərləri" olan Dəbil və Anidə qanuni hökmdarlıq etmişlər. Hətta onlar İsgəndər ben Şavurdan da əvvəl hakimiyyətdə olmuşlar.

Maraqlıdır ki, müəllif Dəbil ərazisində 2010-cu ildə təsərrüfat işləri zamanı aşkar edilən bir qrup eynitipli sikkələri təyin etməyə çalışır və orada İsgəndərin adından Ərməniyyədə 331 hicri ilində (942-943-cü illər) və 353 h.i. (964-cü ildə) zərb edilən bilon sikkələrin bəzi fotoşəkillərini oxucuya təqdim edirlər (1, 49-50). Şəddadilərin tarixində bilon sikkələrin daxili bazarlarda istifadə edilməsi haqqında elmi ədəbiyyatda müəyyən məlumatlar vardı. Amma həmin sikkələrin anonim olması elə məqalədə verilən 1 və 2-ci fotoşəkillərdə də öz əksini tapır (1, 50). Bu fotolarda İsgəndər ben Şavurun adı aydın oxunur. Digər yazılar təyin edilmir.

Başqa bir qərəzli məqam isə Şəddadilərin bir neçə qola bölünməsidir. Belə ki, müəllif Gəncə Şəddadilərini Dəbil Şəddadilərindən kəskin olaraq məhz sikkələrinə əsasən fərqləndirmişdir. Əsas kimi çox primitiv elementlər göstərir. O cümlədən, Gəncədə zərb edilən pulların nisbətən iri hərflərlə, Dəbil və Anidə isə lakonik və yalnız hökmdarın adının göstərilməsini əsas kimi təqdim edir. Halbuki, numizmatik elminin əsaslarında hərflərin eyni vaxtda məkanda və hökmdar tərəfindən fərqli zərb işi artıq mərkəzləşmiş dövlətin mövcudluğundan xəbər verməsi kimi qəbul olunubdur (3). Yəni kiçik şəhərlərdə zaman-zaman yerli zərbə icazə verilib və bunun da əsas səbəbləri xırda pul vahidlərinin çatışmazlığı ola bilərdi.

A.Akopyanın digər bir araşdırması Cənubi və Şimali Qafqazda 2007-2009-cu illərdəki numizmatik tapıntılara həsr olunmuşdu. Müəllif həmin sik-

kələrin ona hansı yolla, kimlər tərəfindən və dəqiq haradan tapılmasını, yəni topoqrafik məlumatları vermədən birbaşa təsvirə keçmişdi. Bizim üçün maraqlı olan 2009-cu ildə köhnə Qəbələdən aşkar edilən Ərəşdə 978 hicri ilində (1570-1571-ci illər) zərb olunmuş və onun tərəfindən "lənətlənmiş" tipli iki ədəd mis sikkə, Ordubadda da zərb olunmuş eynitipli mis sikkə, 2008-ci ildə Ordubadın Dəstə kəndi yaxınlığında tapılan iki ədəd qızıl nomınaldı. Burada erməni mənşəli müəllif fürsətdən istifadə edərək Dəstə kəndinin qədim erməni şəhəri olan Aqulisin yaxınlığında olmasını xüsusi olaraq qeyd edir (2, 47).

2010-cu ildə Fransada gürcü alimi M.Tsotseliya tərəfindən qələmə alınan "Sasanilərin sikkələri" adlı monoqrafiyası çap olunmuşdu. Bu kitabda, əsasən Gürcüstan ərazisində XX-XXI əsrin əvvəllərində aşkar edilən və Gürcüstan Milli Muzeyinin "Numizmatika" Fondunda saxlanılan bəzi dəfinələr geniş araşdırılmışdı. Sikkələrin numizmatika təhlili zamanı, həmçinin Azərbaycan şəhərlərində zərb edilən Sasani dövrünün pullarından da bəhs edilir (5).

2009-cu ildə rusiyalı alim Q.V. Zlobin tərəfindən "Монеты Ширваншахов династии Дербенди (третья династия) 784 г. х (1382) – 956 г. х. (1548) əsəri işıq üzü görüb.

Bu əsərdə Şirvanşahların sikkə materiallarının öyrənilməsi tarixində ilk dəfə dövlətin son 172 ili 151 ədəd sikkənin öyrənilməsi ilə həyata keçirilmişdi. Burada 284 sikkənin əllə çəkilmiş və 254 ədəd sikkənin isə fotoşəkilləri vardı. Üç bölümdən ibarət olan kitabda Şirvanın tarixi-coğrafi təsviri, öyrənilmə tarixi, ikinci fəsildə Dərbəndilərin hakimiyyət illərinin geniş tarixi təsviri, üçüncü fəsildə bu sülalənin elmə məlum olan gümüş və mis sikkələrinin elmi kataloqu çap olunmuşdu.

Araşdırdığımız mövzu çərçivəsində həm də Şirvanşahların sikkələrinin bənzətmələri haqqında da məlumat vardı. Bu cür sikkələrin mövcudluğu haqqında Azərbaycan numizmatika elmində araşdırma, ümumiyyətlə yox dərəcəsindədir (4).

## ƏDƏBİYYAT


1. Acopyan A. An unique coin of the Shaddadidruler, Ashot ibn Shavur //Journal of Oriental Numizmatic Sosiety, 195 (2008), p. 5-6. 120 s.
2. Акопян А. О монетных находках в Закавказье и на Северном Кавказе в 2007-2008 гг. – В материалах Международной конференции «Археология, этнология, фольклористика Кавказа» Тбилиси: Меридиани, 670 с. 2011.
3. Лебедев В.П. , Марков Д.Б. , Коуфман А.А. Монетное дело и монетное обращение Ганджинского эмирата Шаддадидов (сер XI в), М.: Просвещение, 46 с. 2006.
4. Злобин Г. В. Монеты династии Дербенди (третья династия), М.: Просвещение, 432 с. 2010.
5. Tsotselia M. History and coin finds in Georgiya, Sasanian coin finds and hoards Paris, 96 pages. 2003.

## АЗЕРБАЙДЖАНСКАЯ НУМИЗМАТИКА В ТРУДАХ ЗАРУБЕЖНЫХ УЧЕНЫХ (НА ОСНОВЕ ОПУБЛИКОВАННЫХ ТРУДОВ ПОСЛЕДНИХ ЛЕТ)

**М.И.ВЕЛИЕВА**

### РЕЗЮМЕ

В данной статье автор обращает внимание на некоторые исследования зарубежных авторов, где рассматриваются некоторые вопросы азербайджанской нумизматики**.** В целом, монеты и монетная регалия в денежном обращении нашей страны около 200 лет привлекает внимание многих зарубежных ученых. В настоящее время эта тенденция как бы продолжается в другом направлении. Примечательно, что в данном исследовании особо рассмотрены некоторые вопросы истории Азербайджана на основе этих опубликованных материалов.

**Ключевые слова:** Сасаниды, Шеддадиды, этнический вопрос

## AZERBAIJAN NUMISMATICS IN THE WORKS OF FOREIGN SCHOLARS (ON THE BASIS OF PUBLISHED WORKS IN RECENT YEARS)

**M.I.VELIYEVA**

### SUMMARY

The article elucidates some studies of foreign authors which examine Azerbaijan numismatics. In general, coins and monetary regalia in the currency of our country have attracted the attention of many foreign scholars for nearly 200 years. Currently, this trend seems to continue in another direction. It is noteworthy that in the paper, we consider some aspects of the history of Azerbaijan on the basis of published materials.

**Key words:** Sassanids, Shaddadids, ethnic questions.